BAKI XƏBƏR
8
3 SENTYABR 2025
№ 156 (5478)

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

# Azərbaycan mediası dövlət mənafelərinin güclü müdafiəçisinə çevrilib...

**Dünyada cərəyan edən hadisələr informasiya üzərində qurulub və müasir həyatı onsuz təsəvvür etmək çətindir. İnformasiyanın düzgün idarə edilməsi, məlumatın vaxtında çatdırılması ictimai-siyasi həyata da ciddi təsir edir. Eyni zamanda informasiyanın dəqiqliyi, operativliyi də hadisələrin inkişafında önəmli rol oynayır. Bu mənada azad mətbuat ictimai-siyasi həyatda ciddi faktora çevrilir. İnternet resursları, o cümlədən sosial şəbəkələr, elektron informasiya vasitələri cəmiyyətin maariflənməsi istiqamətində yeni istiqamət müəyyən edib.**

Söz və fikir azadlığı, informasiyanın maneəsiz yayılması ölkəmizdə demokratik inkişafın yüksələn xətlə inkişaf etməsinə işarədir. Deməli, yeni imkanlar informasiyanın dərhal yayılması üçün əla vasitədir.

Azərbaycanda azad medianın, insan hüquq və azadlıqlarının müdafiəsi demokratik mexanizmlərinin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir. Bu gün Azərbaycanda fikir, söz və məlumat azadlığı, plüralizm inkişaf edir. Ölkə söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdən hesab edilir. Kütləvi İnformasiya Vasitələri - qəzetlər, jurnallar, televiziya və radiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, elektron mətbuat, saytlar fəaliyyət göstərir. Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Azərbaycanın artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır.

**Ölkə mediası dövlət maraqlarını qorumağa qadirdir**

Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə media ilə bağlı bildirib ki, bu mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb və bunu tam səmimiyyətlə deyirəm: "Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı olan əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur". Ölkə başçısı onu da vurğulayıb ki, Azərbaycan mediası artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli reallıqdır.

**İndi medianın missiyası həm də hücum mövqeyindən informasiya savaşlarını udmaqdır**

Sözügedən məsələyə münasibət bildirən yazıçı-publisist, Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər bir situasiyanın, bir tədbirin məqamı olmaqdan daha çox, bütövlükdə Azərbaycan mediasının son illərdə keçdiyi yolun, qazanılmış mövqenin və formalaşdırılan yeni fəlsəfənin təsdiqidir: "Dövlət başçısı Azərbaycan mediasının dövlət maraqlarını qorumağa qadirdir olduğunu, üstəlik, lazım gəldikdə hücuma da keçdiyini açıq şəkildə bildirdi. Bu, həm milli mətbuatın kimliyini ifadə edən, həm də gələcək yol xəritəsini müəyyənləşdirən bir konseptual yanaşmadır. Azərbaycan mediasının uzun illər "özünümüdafiə" xəttində dayanmağa məcbur olduğu məlumdur. Qarabağ həqiqətlərini dünyaya çatdırmaqda, saxta xəbərlərə, iftira kampaniyalarına cavab verməkdə çox güc sərf olunub. Lakin artıq durum kökündən dəyişib: işğaldan azad edilmiş torpaqlarda bayrağımızla yanaşı Azərbaycan sözünün və informasiya iradəsinin yüksəldiyi, milli mətbuatın sadəcə "reaksiya" verməklə kifayətlənmədiyi bir dönəm başlanıb. İndi medianın missiyası təkcə həqiqətləri müdafiə etmək deyil, həm də hücum mövqeyindən informasiya savaşlarını udmaqdır. Bu, Prezidentin ifadəsi ilə desək, "idmanda olduğu kimi ən yaxşı müdafiənin hücum olması" fəlsəfəsinə söykənir. Prezidentin mətbuatın ünvanına dediyi "arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə böyük uğurlar əldə edib" sözləri təsadüfi deyil. Bugünkü Azərbaycan mediasının silahı yalnız emosional çağırışlar deyil, bəziləri kimi "feykologiya" deyil, faktologiyadır, bəlgələrdir, beynəlxalq hüququn dili ilə danışan arqumentlərdir. Bu yanaşma milli informasiya məkanını dünya arenasında güvənli tərəfdaş edir. Azərbaycan mediası artıq yalnız "öz içimizdə" yox, qlobal müstəvidə də nüfuz qazanır, beynəlxalq təşkilatlarda dinlənilir, xarici platformalarda təsir gücü qazanır. Prezidentin çıxışı həm də bir çağırış kimi xarakterizə oluna bilər: bəli, media sadəcə maarifləndirici, informativ qurum deyil, milli təhlükəsizlik sisteminin ayrılmaz hissəsidir. Xaricdən yönəldilən iftira və qara piar kampaniyaları, "hibrid müharibə" elementləri məhz informasiya səngərində dəf olunur. Bu səbəbdən, jurnalist peşəkarlığı ilə yanaşı, milli maraq və dövlətçilik məsuliyyəti də ön plana çıxır.




Beləliklə, hücum fəlsəfəsi burada aqressiya yox, təşəbbüskar olmaq deməkdir. Söhbət, informasiya müstəvisində gündəm yaradan, həqiqətləri öncədən ortaya qoyan, dünya auditoriyasına yeni suallar ünvanlayan mətbuatdan gedir. Azərbaycan mediası artıq "sual olunan"lıqdan çıxıb, "sual verən" mövqeyə keçir. Bu isə müstəqil dövlətin öz gücünə arxalanmasının gerçək göstəricisidir. Yəni Şuşada səslənən bu ismarıc, əslində, Şuşanın özünün taleyindən gələn bir dərsdir: müdafiədən hücuma keçid, məğlubiyyətdən Zəfərə yüksəliş!.. Necə ki, Şuşa qalası azad olundu və Zəfərin simvoluna çevrildi, eləcə də Azərbaycan mediası informasiya savaşında öz Şuşasını - söz qalasını qurmaqdadır. Prezidentin sözləri isə həmin qalaya bayraq sancmaq qədər qətiyyətli, strateji və yön göstərən anlam daşıyır.

Dövlətimiz zaval görməsin!".

*Vidadi ORDAHALLI*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur*